AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

TURAN VƏLİYƏDDİN OĞLU CƏFƏROV

# YÜNGÜL SƏNAYE SAHƏLƏRİNDƏ RESURSLARIN SƏMƏRƏLİ İSTİFADƏ PROBLEMLƏRİ

**İxtisas: 5312.01- Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AV T O R E F E R A T I**

NAXÇIVAN – 2015

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin "Mühasibat uçotu və audit" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sabir Qənbər oğlu Cümşüdov**
İqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Ramiz Kamal oğlu İsgəndərov**
İqtisad üzrə elmlər doktoru, professor

**Şahraz Müzəffər oğlu İbrahimov**
İqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "İstehsal resurslarından istifadə və aqroservis xidməti" şöbəsi

Müdafiə "30_" may 2015-cü ildə saat _ -da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" aprel 2015-cü il tarixdə göndərilmişdir.

**D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A. Şıxəliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müstəqillik əldə etmiş Azərbaycan Respublikasında yüngül sənaye sahəsi ölkənin xalq təsərrüfatının əsas sahələrindən birinə çevrilmişdir. Bu sahənin qarşısında duran başlıca vəzifə – əhalinin və xalq təsərrüfatının yüngül sənaye məhsullarına və vasitələrinə olan tələbatın tam ödənilməsindən ibarətdir. Respublikamızda əhalinin və xalq təsərrüfatının yüngül sənaye məhsullarına olan fasiləsiz artan tələbatlarının ödənilməsi elmi-texniki tərəqqinin nailiyyətlərinin istifadəsi, yüngül sənaye müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi, onun iqtisadi inkişafın sürətləndirilməsinin təmin edilməsi, yüngül sənaye müəssisələrinin məqsədəuyğun yerləşdirilməsi və yüngül sənaye müəssisələrinin resurslarının səmərəli istifadəsi yolu ilə həyata keçirilə bilər.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin yüngül sənaye sahəsində tətbiqi qarşıya mühüm tələblər qoyur. Bu tələblər əsasən aşağıdakılardan ibarətdir;

- Yüngül sənaye məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, onun müasir bazarının tələblərinə uyğun istehsalı ilə əlaqədar plan və proqnoz qərarlarının əsaslandırılması və yerinə yetirilməsi;
- İstehsalın və xidmətin səmərəliliyinin yüksəldilməsinin intensiv amillərinin rolunun gücləndirilməsi;
- bu sahənin inkişafının iqtisadi problemlərinin və məsələlərinin həllində iqtisadi-riyazi metodların, habelə, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması;
- yüngül sənaye müəssisələri üçün tələb olunan kadrların hazırlanması və onların səmərəli istifadə olunması;
- yüngül sənayenin idarə edilməsində avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi, yüngül sənaye təsərrüfatlarının sərəncamında olan resursların səmərəli istifadə olunması.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı, 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda (2004-2008-ci illər) və "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının 2009-2013-cü illər üçün Dövlət Proqramı" əhalinin artan tələbatlarına uyğun keyfiyyətli yüngül sənaye məhsullarının istehsalı və onların keyfiyyətinin daha da yüksəldilməsi sahəsində qarşıya mühüm vəzifələr qoyulmuşdur. Həmin vəzifələr, həyata

keçiriləcək tədbirlər və görüləcək işlər respublikada sosial-iqtisadi inkişafın sürətləndirilməsinə təminat verir. Təməli etibarlı şəkildə qoyulmuş sosial-iqtisadi bazanın bundan sonra daha da sürətlə inkişafı və möhkəmlənməsinə ümid bəsləməyə əsasımız vardır.

Fərmanda yeni istehsal sahələrinin yaradılması, özəl sektorun və qeyri-neft sahələrinin inkişafı, işsizliyin ləğvi və yoxsulluğun aradan qaldırılması kimi zəruri problemlərin həlli yolları göstərilir. Bunların həyata keçirilməsində bütün sahələr fəallıq göstərməlidir. Fərmanın həyata keçirilməsində müvafiq nazirlik, idarə və təşkilatlarla yanaşı, elmi-pedaqoji kadrların, müxtəlif ixtisas və peşə sahiblərinin-mütəxəssislərin əməyindən də geniş istifadə edilməlidir. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı, təsərrüfatların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi istiqamətində yüksək ixtisaslı kadrlar hazırlamaqla yanaşı, elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin sürətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Müasir dünyada bu və ya digər sahənin inkişafına təsir edən mühüm amillərdən biri də, həmin sahəyə informasiya-kommunikasiya texnologiyalarının nə dərəcədə nüfuz etməsidir. İqtisadiyyatın bütün sahələrində, elmdə və idarəçilikdə, habelə bütün digər sahələrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi amili, bir tərəfdən inkişafın zəruri şərtinə çevrilmiş, digər tərəfdən isə bu sahənin inkişafının mühüm göstəricilərindən biri hesab edilir. Heç də təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə dövlət idarəçiliyi elektron hökumət üzərində qurulur. Odur ki, müasir dünyada uğur qazanmaq üçün informasiya-kommunikasiyanı inkişaf etdirmək tələb olunur. Bu sahəyə sərf olunan xərclər son nəticədə mühüm səmərənin əldə edilməsinə imkan yaradır. Təsadüfi deyil ki, ölkəmizin inkişafı və çiçəklənməsi yolunda titanik əmək sərf etmiş Azərbaycan xalqının ümumi milli lideri Heydər Əliyev özünə xas olan bir müdrikliklə 17 fevral 2003-cü ildə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya (2003-2012-ci illər)" ilə bağlı sərəncam imzaladı və bununla da ölkəmizin informasiya-kommunikasiya sahəsində hərtərəfli və dinamik inkişafını dövlətin diqqət obyektinə çevirdi. Azərbaycan Respublikasının iri şəhərləri, sənaye mərkəzləri və regionlarında sosial-iqtisadi inkişafın sürətləndirilməsinin əsas amillərindən biri də yüngül sənaye məhsullarının keyfiyyətinin yüksəldilməsidir. Bu isə öz növbəsində yüngül sənaye müəssisələrinin hərtərəfli fəaliyyətinin səmərəliliyinin yüksəldilməsini tələb edir. Yüngül sənaye müəssisələrinin hərtərəfli fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin başlıca amili onların sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarının səmərəli

istifadə olunmasıdır. Bu səbəbdən də yüngül sənaye sahəsində resursların səmərəli istifadə problemlərinin araşdırılması məqsədi qarşıya qoyulmuşdur.

**Problemin öyrənilmə səviyyəsi**. Dünya birliyi ölkələrinin iqtisadçı alimlərinin əsərlərində yüngül sənaye müəssisələrinin fəaliyyətinin səmərəli təşkili məsələləri ayrıca və geniş tədqiqat obyekti kimi baxılmasa da bu sahənin fəaliyyətinə kompleks şəkildə, xüsusilə, biznesin səmərəliliyi məsələlərinə mühüm əhəmiyyət verilmişdir. Müstəqil dövlətlər birliyi ölkələrində sənaye müəssisələrinin və eləcə də yüngül sənaye müəssisələrində istehsalın və kommersiya fəaliyyətinin təşkilinin öyrənilməsi məsələlərinə V.İ.Sinko, İ.N.Simirnov, L.A.Liberman, T.N.Jukova, Y.V.Volkov, S.N.Vinoqradova, B.A.Anikin, A.P.Tyapuxin, F.Q.Pakratov, B.İ.Sinetski, L.V.Osipova, İ.M.Sinyayeva, S.N.Tretyak, V.P.Qruzinov, R.A.Fatxuddinov, V.K.Falsman, Y.V.Qorfinkel, V.A.Şvandar, İ.N.Qerçikova və başqaları öz əsərlərində geniş yer vermişlər. Respublikamızda sənaye müəssisələrinin fəaliyyətinin bu və digər aspektlərini F.Ə.Məmmədov, T.N.Əliyev, M.Q.Ağamalıyevin, M.M.Məmmədrzayevin, K.R.Paşayevin, V.T.Səfərovanın, Ə.X.Nuriyevin, S.Q.Cümşüdovun, T.Ə.Hüseynovun, T.Ə.Quliyevin, M.Ə.Axundovun, Ş.Ə.Axundovun, V.M.Niftullayevin, İ.Ə.Feyzullabəylinin, Z.S.Adullayevin və b. əsərlərində öz əksini tapmışdır. Bu tədqiqatlar əsasən özəlləşdirməyə qədər və Azərbaycan müstəqilik əldə etməzdən əvvəl yerinə yetirilmişdir.[1] Ölkəmiz müstəqillik əldə etdikdən sonra sənayenin ayrı-ayrı sahələrində, xüsusilə də, yüngül sənaye müəssisələrində resursların səmərəli istifadə olunması məsələləri və problemləri kompleks və sistemli şəkildə öyrənilməsi ilə əlaqədar tədqiqatlar aparılmamışdır.[2] Bu baxımdan, yüngül sənaye sahəsində resursların səmərəli istifadə problemlərinin həlli ilə əlaqədar tədqiqatların aparılmasına ehtiyac diqqəti cəlb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycanın yüngül sənaye müəssisələrində resursların səmərəli istifadəsi əsasında bu sahənin təsərrüfatlarının hərtərəfli fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, onların müasir bazar iqtisadiyyatı sisteminin tələblərinə uyğun şəkildə təşkili və perspektivdə təkmilləşdirilməsi istiqamətində elmi-metodiki və praktiki təklif və tövsiyələrin işlənib hazırlanmasından

---

1 "Müəssisələr haqqında" Azəbaycan Respublikasının Qanunu, 1 iyun 1994-cü il, № 847.
2 Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı (dərslik). Bakı: Azərnəşr, 2009, s. 208

ibarətdir. Tədqiqat işində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı məsələlərin həlli zəruri bir vəzifə kimi qarşıya qoyulmuşdur:

- ✓ Bazar iqtisadiyyatı şəraitində yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin iqtisadi mahiyyəti və xüsusiyyətləri;
- ✓ Yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin metodoloji prinsipləri;
- ✓ Yüngül sənaye sahəsində resursların təsnifatı və onların səmərəli istifadəsinə təsir edən amillər;
- ✓ Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsini xarakterizə edən göstəricilərin təhlili;
- ✓ Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadə yolları;
- ✓ Yüngül sənaye müəssisələrində resursların səmərəli istifadəsinin təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar konkret təkliflərin işlənib hazırlanması.

**Tədqiqatın obyekti.** Azərbaycanın yüngül sənaye müəssisələri və istehsal birlikləridir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini bazar iqtisadiyyatı şəraitində respublikamızda fəaliyyət göstərən yüngül sənaye müəssisələrində, firmalarında və səhmdar cəmiyyətlərində resursların səmərəli istifadəsi ilə əlaqədar iqtisadi münasibətlər sistemi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları və informasiya mənbələri.** Elmi-tədqiqat işinin metodoloji əsaslarını dialektikanın qanunları, prinsipləri, kateqoriyaları, anlayışları və metodları əsasında işlənib hazırlanmış iqtisadi tədqiqatların metodologiyası təşkil edir. Tədqiqatın nəzəri əsasları iqtisad elmi və təcrübəsinin geniş yayılmış üsul və yanaşmaları, metodları, xarici və ölkə alimlərinin, mütəxəssislərin elmi-nəzəri və təcrübi araşdırmaları olmuşdur.[3] Tədqiqat üsulu kimi iqtisadi və müqayisəli təhlil, iqtisadi-riyazi, habelə iqtisadi statistika üsullarından istifadə olunmuşdur. Dissertasiya işində əsas informasiya mənbələri kimi iqtisadçı alimlərin elmi əsərləri, Azərbaycan iqtisadiyyatının inkişafını əks etdirən statistik göstəricilər və dövlət-hökumət sənədləri, bəzi özəl müəssisələrinin göstəricilərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi bazar iqtisadiyyatı, iqtisadi islahatlar və informasiya cəmiyyətinin formalaşdığı

---

[3] Eldaroğlu Ə. Yüngül sənayenin dirçəldilməsi yolları axtarılırmı? / Yeni dünyada yeniləşən Azəbaycan iqtisadiyyatı (məqalələr toplusu). "Qloballaşan Azəbaycan" Sivil İnkişaf Mərkəzi (QASİM), Bakı, 2006, s. 359.

müasir şəraitdə ölkədə və onun regionlarında yüngül sənaye məhsullarının istehsalının məqsədəuyğun təşkili, onun səmərəliliyinin yüksəldilməsi problemlərinin hərtərəfli, sistemli, kompleks yanaşma ilə müəyyən olunmasıdır. Tədqiqatın elmi yeniliklərinə aşağıdakılar aid edilir:

- Bazar iqtisadiyyatı şəraitində yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin iqtisadi mahiyyəti və xüsusiyyətlərinin araşdırılması;
- Yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin metodoloji prinsiplərinin işlənməsi;
- Yüngül sənaye sahəsində resursların təsnifatının verilməsi və onların səmərəli istifadəsinə təsir edən amillərin müəyyən edilməsi;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsini xarakterizə edən göstəricilərin təhlil edilməsi;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadə yollarının müəyyən edilməsi;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin gəlirlilik və mənfəətlilik nöqteyi-nəzərdən qiymətləndirilməsi;
- Yüngül sənaye sahələrində resursların səmərəli istifadəsinin təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar konkret təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti**. Dissertasiya işində ətraflı şərh olunan Azərbaycan Respublikasının yüngül sənaye təsərrüfatlarında resursların səmərəli istifadəsi ilə əlaqədar müəyyən edilmiş prinsiplər, istiqamətlər, yollar, mənbələr, ehtiyatlar, habelə, işlənib hazırlanmış təklif və tövsiyələr elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir. İşin təcrübi əhəmiyyəti bir də ondan ibarətdir ki, tədqiqatın əsas nəticələri gələcəkdə ölkənin sənaye mərkəzlərində və regionlarında yüngül sənaye təsərrüfatlarında resursların səmərəli istifadəsinin təşkilinin təkmilləşdirilməsinə və bütövlükdə yüngül sənaye sahələrinin inkişafına kömək edə bilər.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın əsas müddəaları Azərbaycan Texniki Universitetinin və Sumqayıt Dövlət Universitetinin elmi konfranslarında, habelə, Respublika və Beynəlxalq konfranslarda məruzə edilmiş, bəyənilərək dərc edilmişdir. Dissertasiya işinin əsas məzmunu dərc edilmiş elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Nəşr olunmuş elmi əsərlər.** Tədqiqat işinin nəticələri 2-si xaricdə olmaqla nəşr olunan 11 elmi əsərdə öz əksini tapmışdır.

**İşin həcmi və quruluşu**. Dissertasiya giriş, üç fəsil, 11 yarımfəsil, nəticə və təkliflərdən ibarət olmaqla 168 səhifə kompüter çap vərəqi həcmindədir. İşin sonunda tədqiqat zamanı istifadə olunmuş 158 adda ədəbiyyat siyahısı əks olunur. Tədqiqat işində 20 cədvəl və 2 sxem verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti müəyyən edilir, onun nəzəri-metodoloji əsasları, öyrənilmə səviyyəsi, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiya işinin **"Yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin nəzəri-metodoloji əsasları" adlı birinci fəslində** yüngül sənaye sahələrində istifadə olunan resurslar araşdırılmış, onlardan səmərəli istifadənin iqtisadi mahiyyəti və xüsusiyyətləri verilmiş, milli iqtisadiyyatın inkişafında  yüngül sənaye sahələrinin əhəmiyyəti göstərilmişdir.

Dünya iqtisadiyyatının sürətli inkişafı ilə, ciddi dəyişikliklərə məruz qalan sənaye sahələri qarşısında mühüm vəzifələr durur. İqtisadiyyatın bazar tələblərinə uyğun yenidən qurulması, dövlət tənzimlənməsinin zəifləməsi, bazarların liberallaşdırılması, rəqabət mühitinin formalaşması və ətraf mühitin mühafizəsi problemləri, resurslar sektorunda mühüm dəyişikliklərə təkan vermiş, resurslardan daha səmərəli istifadə olunması məsələsini qarşıya qoymuşdur. Qlobal miqyasda rəqabətə davam gətirmək üçün sənaye sahələri və müəssisələrinin yeni bazar şərtlərinə uyğunlaşdırılması istifadə olunan bütün resurslardan; təbii, material, əmək, maliyyə, informasiya, təşkilati və s. daha səmərəli istifadə olunması yollarının axtarıb tapılmasını, müəssisələrin sərəncamında olan, xüsusi ilə istehsal resurslarından daha səmərəli istifadə olunmasını gündəmə gətirmişdir.

Resurslar – tələbatın ödənilməsi üçün zəruri olan vasitələrdir, yəni əmtəə və xidmət istehsalı üçün istifadə olunan təbiət, əmək, kapital və sahibkarlıq qabiliyyəti iqtisadi resursların formalarıdır -1(İqtisadi[4] nəzəriyyə - 1999, səh. 682.) Müasir iqtisadi şəraitdə müəssisələrin, firmaların, sahələrin rəqabətliliyi onların dinamik faliyyətini təmin etmək üçün mühüm amil olduğunu nəzərə alsaq, onun müəyyən olunmasında resurslardan səmərəli istifadənin əhəmiyyəti daha aydın görünür.[5]

---

4 Vəliyev T.S. İqtisadi Nəzəriyyə (dərslik), Bakı, 1999, s. 291.
5 Məmmədov V.Ə. Azərbaycanda yüngül sənayenin təşkilinin təkmilləşdirilməsi problemləri / "Azərbaycanın iqtisadiyyatı yüksəliş yolunda" (məqalələr toplusu) V (XIV) buraxılış, Bakı: Elm, 2003, s. 574.

Rəqabətlilik müəssisələrin, firmaların, sahələrin öz resurslarından səmərəli istifadənin səmərəliliyini əks etdirən mühüm göstəricilərdən biridir. Bu halda müəssisələrin, firmaların, sahələrin fəaliyyəti mənfəətin əldə edilməsi ilə bağlıdır və ümumi resursların məbləği pul ifadəsində qiymətləndirilir. Resurslardan səmərəli istifadəni əks etdirən göstəricilərdən biri də istehsalın rentabelliyi göstəricisidir. O, əldə olunmuş mənfəətin həmin dövrdə istifadə olunmuş resurslara nisbəti kimi müəyyən edilir ki, bu da istehsal məsrəflərini qiymətləndirir.

Bu gün respulikamızda fəaliyyət göstərən yüngül sənaye sahələrində resurslardan istifadə dərəcəsinin müəyyən edilməsi üçün, ayrı-ayrı sahələrin, müəssisə və şirkətlərin malik olduğu resursların miqdarını, yerləşməsini və istifadə mexanizmini öyrənmək lazımdır. Belə ki, yüngül sənaye sahələri bir-birindən istifadə olunan resurslarına və onların təyinatına görə fərqlidirlər. Resurslardan istifadə və təyinatına görə yüngül sənaye sahələrinin sxematik qurluşuna baxaq (sxem 1).

**Yüngül sənaye sahələrinin sxematik quruluşu**




**Sxem 1.**

***Qeyd:*** *Sxem Azərbaycan Respublikası iqtisadi inkişaf nazirliyinin və dövlət statistika komitəsinin müvafiq strukturlarının informasiyaları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Sxemdə göstərilən yüngül sənaye sahələrində istifadə olunan təbii, iqtisadi, istehsal və digər resursların bir-birindən təyinatına və istifadə xüsusiyyətlərinə görə fərqlənməsinə baxmayaraq, resurslardan səmərəli istifadə yollarının metodologiyası və metodikası ümumi iqtisadi qanunauyğunluqlara əsaslanır. Bu ümumi qanunauyğunluqlar əsasında yüngül sənaye sahələrində resurslardan səmərəli istifadəsinin metodoloji prinsipləri əsaslandırılmışdır:

**Elmi yanaşma**. Yüngül sənaye sahəsində resursların səmərəli istifadə olunmasının təşkili, planlaşdırılması, idarə olunması, uçotu, təhlili və qiymətləndirilməsində obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalıdır. Belə ki, bu qanunlar iqtisadi hadisə və proseslərin səbəb-nəticə əlaqələrini əks etdirir.

**Sistemli yanaşma**. Yüngül sənaye və onun təsərrüfatlarının hərtərəfli fəaliyyətinin təşkili, planlaşdırılması və idarə edilməsində kibernetik sistemin bütün xassələri nəzərə alınmalıdır. Belə ki, hər bir xalq təsərrüfatı sahəsi və onun təsərrüfatları ayrı-ayrılıqda tam-bütöv bir kibernetik sistemi xatırladır. Bu səbəbdən də kibernetik sistemin bütün xassələri yüngül sənaye müəssisələrinə şamil edilməlidir. Beləliklə, kibernetik sistem kimi qəbul etdiyimiz yüngül sənaye təsərrüfatının bütün bölmələri (elementləri) qarşılıqlı əlaqədə olub, biri-birinə qarşılıqlı təsir göstərməklə biri digərini şərtləndirir. Digər tərəfdən tam sistemin (bütövlükdə təsərrüfatın) səmərəliliyi həmin sistemin ayrı-ayrı bölmələrinin (elementlərinin) səmərəliliyindən asılıdır.

**Kompleks yanaşma**. Yüngül sənaye sahəsində və onun təsərrüfatlarında resursların səmərəli istifadəsinin təşkili, planlaşdırılması, idarə olunması, uçotu, təhlili və qiymətləndirilməsində kompleks texniki-texnoloji, təşkilati, ideya-tərbiyəvi, psixoloji, sosial və iqtisadi amillərin təsiri nəzərə alınmalıdır. Belə ki, yüngül sənaye təsərrüfatlarında elmi-texniki tərəqqinin nailiyyətlərinin, yeni texnoloji metodların tətbiqi xüsusi aktuallıq kəsb edir. Belə ki, yüngül sənayenin maddi-texniki bazasının möhkəmləndirilməsi müasir informasiya-kompüter texnologiyalarının geniş tətbiqinə əsaslanmalıdır. Bununla yanaşı, kadrların hazırlanması (təhsil sistemi şəbəkəsi vasitəsilə), onların düzgün seçilməsi, yerləşdirilməsi və səmərəli istifadə olunmasına xüsusi fikir verilməlidir.

- Yüngül sənayedə resursların səmərəli istifadəsi ilə əlaqədar xərclərin uçot, plan və normativ göstəricilərin biri-birinə uyğunluğu təmin edilməlidir. Belə ki, yüngül sənaye sistemində resursların səmərəli istifadəsi ilə əlaqədar planlaşdırılan xərclər

həmin xərclərin uçot və normativ göstəriciləri ilə eynilik təşkil edərək, müqayisə edilə bilən olmalıdır.

- Yüngül sənaye sistemində resursların səmərəli istifadəsi ilə əlaqədar xərclər üzrə uçot, plan və normativ göstəricilərin hesablanması metodikasının eyniliyi təmin edilməlidir.
- Yüngül sənaye sistemində resursların səmərəli istifadəsi ilə əlaqədar xərclər üzrə uçot formalarının sadəliyi və dəqiqliyi təmin edilməlidir.

**Qənaətçilik**. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, yüngül sənaye təsərrüfatlarının sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarından səmərəli istifadə edilməlidir. Resursların səmərəli istifadə dərəcəsi, həmin resursların gəlirlilik və mənfəətlilik göstəriciləri ilə qiymətləndirilməlidir.

**Sahə və ərazi amillərinin düzgün əlaqələndirilməsi**. Məlum olduğu kimi xalq təsərrüfatı sahələri nazirliklər, ərazilər isə icra hakimiyyəti orqanları vasitəsilə idarə olunur. Odur ki, müxtəlif regionlarda və ərazilərdə yerləşdirilən yüngül sənaye müəssisələrində resursların səmərəli istifadəsinin təşkili, planlaşdırılması və idarə edilməsində ərazi amilləri sahə amilləri ilə uzlaşdırılmalıdır.

**Optimallıq.** Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, resursların səmərəli istifadəsinin təşkili, planlaşdırılması və əməli idarə edilməsində çox variantlılıq nəzərə alınmaqla bu prosesin iqtisadi-riyazi modeli qurulmalı, həmi iqtisadi-riyazi model reallaşdırılaşdırılması riyazi proqramlaşdırma metodlarının tətbiqi əsasında müvafiq alqoritmin işlənib hazırlanması ilə optimal variant seçilməlidir.

**Səmərəlilik**. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, resusların səmərəli istifadəsi ilə əlaqədar qəbul ediləcək təşkilati, plan və əməli idarəetmə qərarları iqtisadi cəhətdən səmərəli olmalıdır. Odur ki, resursların səmrəli istifadəsi ilə əlaqədar qəbul ediləcək qərarlar iqtisadi cəhətdən əsaslandırılmalıdır.

Maddi və mənəvi həvəsləndirmə. Yüngül sənaye müəssisələrində məhsulun keyfiyyətinin yüksəldilməsində kollektivin hər bir üzvünün maddi marağı olmalıdır. Əmək haqqı forma və sistemləri məqsədəuyğun seçilməli, əmək haqqının tarif sisteminin elementləri beynəlxalq standartlara uyğunlaşdırılmalı, aylıq əmək haqqı əməkçinin maddi tələbatını ödəməlidir. Hər bir əməkçinin əməyi mənəvi cəhətdən də fərqləndirilməlidir. Qabaqcıl əməkçilər orden və medallarla təltif edilməli, fəxri adlara layiq görülməlidirlər.

Şəxsi, kollektiv və ümumxalq mənafelərinin nəzərə alınması. Ümumxalq (dövlət) mənafeyi meyar qəbul edilməklə şəxsi və kollektiv mənafe nəzərə alınmalıdır.

Nəzarətin təşkili və icranın yoxlanılması. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, resursların səmərəli istifadə edilməsində xüsusi nəzarət sistemi tətbiq edilməlidir. Təsərrüfatın sərəncamında olan həmin resursların səmərəli istifadəsi ilə əlaqədar təşkilati, plan və əməli idarəetmə qəraralarının yerinə yetirlməsinin icrası yoxlanılmalı və müvafiq qərar qəbul edilməlidir.

Dissertasiya işinin bu fəslində eyni zamanda yüngül sənaye sahəsində resursların təsnifatı və onların səmərəli istifadəsinə təsir edən amillər araşdırılmışdır.Qloballaşma şəraitində beynəlxalq standartlara uyğun yeni texnikanın və yeni texnologiyanın tətbiqi əsasında yüngül sənaye təsərrüfatlarının hərtərəfli fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi xüsusi aktuallıq kəsb edir. Tətbiq olunacaq yeni texnika və texnologiyanın növünün və tipinin düzgün seçilməsi, həmin təsərrüfatların resurslarının daha da səmərəli istifadə olunması üçün xüsusi əhəmiyyət kəsb etdiyindən, onların tətbiqinin iqtisadi səmərəliliyinin qabaqcadan əsaslandırılması tələb olunur.[6] Odur ki, yüngül sənaye müəssisələrində işlənib hazırlanan biznes-plan mənfəətlilik meyarı ilə elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqini özündə əks etdirməlidir. Biznes-planın müvafiq bölmələrində texniki, təşkilati və sosial-iqtisadi tədbirlər planlaşdırılır. Texniki tədbirlər: yeni texnikanın və texnoloji proseslərin, habelə yeni texnoloji metodların, kompleks mexanikləşdirmə və avtomatlaşdırmanın tətbiqi planlaşdırılır. Bu yarımbölmədə yüngül sənaye istehsalı proseslərində istifadə olunan maşın və avadanlıqların modernləşdirilməsi, yüngül sənaye istehsalı proseslərinin təşkili sxeminin ən əlverişli variantlarının işlənməsi, tapılması, bu prosesdə istifadə olunacaq avadanlıqların tipinin əsaslandırılması planlaşdırılır.

**Təşkilati tədbirlərə**: idarə aparatının təşkili sxeminin əsaslandırılması, kadrların düzgün yerləşdirilməsi və istifadə edilməsi, kadr hazırlığının təşkili, əməyin elmi təşkili (ayrı-ayrı peşə və ixtisaslar üzrə) tədbirlərin planlaşdırılması aiddir.

**İqtisadi tədbirlərə**: əmək haqqı forma və sistemlərinin düzgün seçilməsi, iqtisadi həvəsləndirmə sisteminin, habelə, mükafatlandırma sisteminin geniş tətbiqinin əsaslandırılması aiddir.

---

6 Спитцына К.А. Главные руководители японских компаний: практика работы. М.: Финансы и статистика, 1999, стр. 160.

**Sosial tədbirlərə**:əldə edilmiş mənfəət hesabına əmək kollektivinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi tam sağlamlaşdırılması, elmi-texnikinailiyyətlərin tətbiqi ilə yeni ixtisasların yaranması, fiziki əməklə mühəndis-iqtisadçı əməyinin xarakteri arasındakı yaxınlığın və kollektivin sosial quruluşunun təkmilləşdirilməsi, asudə vaxtın səmərəli istifadə olunmasının planlaşdırılması aiddir.

Dissertasiya işinin **"Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin müasir vəziyyəti" adlı ikinci fəslində** yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin müasir vəziyyəti araşdırılmış və təhlil edilmişdir.

Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin idarə edilməsi xalq təsərrüfatı sahələrində resursların səmərəli istifadəsinin metodoloji prinsiplərinə əsaslanır. Bu prinsiplər işin I fəslində verilmişdir. Burada resursların səmərəli istifadəsinin idarə edilməsinin təşkili sxeminə və onun təkmilləşdirilməsi məsələlərinə baxılmışdır (sxem 2).




**Sxem 2**

*Qeyd: Sxem Azərbaycan Respublikası iqtisadi inkişaf nazirliyinin və dövlət statistika komitəsinin müvafiq strukturlarının informasiyaları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Sxem 2-dən göründüyü kimi yüngül sənaye sahələrində resursların səmərəli istifadəsinin idarə edilməsi sxemi istehsal birliyinin timsalında verilmişdir. Yüngül sənaye sahələrinin spesifik xüsusiyyətlərinə görə, resurslardan istifadə mexanizmi bir-birindən fərqlənsə də, təsərrüfat fəaliyyətinin təşkili, planlaşdırılması və idarə edilməsində ciddi fərqlər yoxdur.

Yüngül sənaye istehsal birliyində həmin birliyin digər fəaliyyəti ilə yanaşı, onun sərəncamında olan təbii, material-texniki, enerji, əmək və maliyyə resurslarının səmərəli istifadə olunması müvafiq laboratoriyaların elmi-tədqiqat işlərinin tətbiqi nəticələrinə əsaslanmalı və sonradan istehsala tətbiq edilməlidir.

Təbii resursların idarə edilməsi üzrə tədbirlər planının əsas istiqaməti yüngül sənaye sahələrinin sərəncamında olan torpaq sahəsində yardımçı təsərrüfatların yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Bu tədbirlər planı üzrə istehsal birliyinin kollektivinin yardımçı təsərrüfat məhsullarına olan tələbatı nəzərə almaqla ərzaq, meyvə-tərəvəz və digər məhsullarının istehsalının təşkili, habelə, kollektivin tələbatından artıq məhsulların kənara reallaşdırılması ilə əlaqədar təkliflər hazırlanır. Bu təkliflərin həyata keçirilməsi nəticəsində yardımçı təsərrüfatın kənara reallaşdırılan məhsullardan əldə edilən mənfəət öz növbəsində birliyin kollektivinin əməyinin stimullaşdırılmasına və istehsalın inkişafına yönəldilir.

Material-texniki resursların idarə edilməsi üzrə tədbirlər planın əsas istiqaməti yüngül sənaye istehsal birliyinin sərəncamında olan maşın-avadanlıqların, alətlərin-tərtibatların, xammal və əsas materialların, habelə, köməkçi və yardımçı materialların səmərəli istifadəsi üzrə əsaslandırılmış təkliflərin işlənib hazırlanması və həyata keçirilməsindən ibarətdir.

Enerji resurslarının idarə edilməsi üzrə fəaliyyətinin əsas istiqaməti yüngül sənaye istehsal birliyinin sərəncamında olan bütün enerji növlərinin səmərəli istifadəsi üzrə elmi əsaslandırılmış təkliflərin işlənib hazırlanması və onların həyata keçirilməsi təşkil edir.[7]

Əmək resurslarının idarə edilməsi üzrə tədbirlər planının əsas istiqaməti yüngül sənaye istehsal birliyinin sərəncamında olan əmək resurslarının səmərəli istifadə olunması, əmək məhsuldarlığının və məhsulun keyfiyyətinin yüksəldilməsi, habelə, əməyin və əmək haqqının elmi təşkili üzrə əsaslandırılmış təkliflərin işlənib hazırlanması və onların həyata keçirilməsindən ibarətdir. Bununla yanaşı kadrların hazırlanması,

[7] Грузинов В.П. Экономика предприятия. Мщсква: Изд.-во «Юнити», 1998, стр. 235.

məqsədəuyğun yerləşdirilməsi və səmərəli istifadə olunması məsələlərinin həlli də bu fəaliyyətinin mühüm hissəsini təşkil edir.

Maliyyə resurslarının idarə edilməsi üzrə tədbirlərin əsas istiqaməti yüngül sənaye istehsal birliyinin sərəncamında olan maliyyə resurslarının (uzun və qısa müddətli kreditləri nəzərə almaqla) səmərəli istifadəsi, yüngül sənaye istehsal birliyində elmi-texniki tərəqqinin nailiyyətlərinin, innovativ texnologiyaların tətbiqinin maliyyələşdirilməsi üzrə əsaslandırılmış təkliflər işlənib hazırlanmalı və bu birliyin strateji biznes-planında öz əksini tapmalıdır.[8]

Beləliklə, istehsal müəssisələrində kommersiya fəaliyyəti nisbətən daha geniş funksiyaların (məs. tərəf müqabillərinin seçimi və sazişlərin bağlanması, ayrı-ayrı kommersiya əməliyyatlarından tutmuş bütövlükdə kommersiya proseslərinin idarə edilməsi və s.) həyata keçirilməsini nəzərdə tutur.

Yüngül sənaye müəssisəsində məhsulların reallaşdırılması istiqamətində həyata keçirilən funksiyaların strukturu sxemi işdə verilmişdir

**. Cədvəl 1**

**Yüngül sənaye müəssisələrində hazır məhsulun reallaşdırırılması istiqamətləri**

| **Növünə görə** / **Xarakterinə görə** / **Roluna görə** | **Yüngül sənaye məhsullarının istehsalı istiqamətində** | | **Yüngül sənaye məhsullarının reallaşdırılması istiqamətində** | |
|---|---|---|---|---|
| | **Reallaşma xarakteri** | **Texnoloji xarakteri** | **Reallaşma xarakteri** | **Texnoloji xarakteri** |
| Əsas | 1. Alqı<br>2. İcarə | 1.Çatdırılma<br>2.Saxlanma | 1.Reallaşma<br>2. İcarə | 1.Saxlanma<br>2. Bölgü<br>3.Çatdırılma |
| Köməkçi | 1. Marketinq<br>2.Bağlanmış sazişlərin hüquqi müşaiyəti | İstehsal prosesinə hazırlıq | 1. Marketinq<br>2.Bağlanmış sazişlərin hüquqi müşaiyəti | Satışdan əvvəl və sonrakı hazırlıq və xidmət |

[8] Filip Kotler. Marketinqin əsasları. Bakı, 2001, s. 117

Yüngül sənaye müəssisələrinin 2007-2011-cu illər ərzindəki istehsal və satış fəaliyyətinin müasir vəziyyəti cədvəl 2 və cədvəl 3-də verilmişdir.

**Cədvəl 2**

**2007-2011-cu illərdə istehsal edilmiş məhsulun həcmi (faktiki qiymətlərlə, min manat)**

| İllər / Müəssisənin adı | 2007 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|
| 1. "Bakı Tikiş Evi" ASC | 3555,6 | 4079,25 | 4895,76 | 5385,30 |
| 2."Bakı Tikiş Sənaye"ASC | 1281,30 | 1340,65 | 1392,45 | 1430,70 |
| 3. "Şəki-İpək" ASC | 558,90 | 153,80 | 480,65 | 590,60 |
| 4. "Qədim Quba" MMC | 48,65 | 90,60 | 118,40 | 190,35 |
| 5. Baza Sənaye Kombinatı | 129,25 | 221,40 | 256,4 | 291,40 |

**Cədvəl 3**

**Müəssisələrin anbarlarından yüklənmiş mallar və hazır məhsul ehtiyatı**

| İllər / Göstəricilər | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| Toxuculuq və tikiş sənayesi | 38,25 | 48,9 | 54,6 | 61,8 | 80,7 | 110,4 | 84,8 |
| Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 2,5 | 3,6 | 4,6 | 5,4 | 6,5 | 5,7 | 10,65 |
| **Hazır məhsul ehtiyatı** | | | | | | | |
| Toxuculuq və tikiş sənayesi | 14,5 | 4,8 | 13,5 | 16,2 | 19,7 | 27,7 | 38,6 |
| Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 1,65 | 0,15 | 1,5 | 2,1 | 1,9 | 2,5 | 3,8 |

*Mənbə: Cədvəl 1, 2 və 3 İqtisadi İnkişaf Nazirliyinin və Yüngül sənaye müəssisələrinin müvafiq şöbələrinin göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Yüngül sənaye sahəsində özəlləşdirmə başlayana qədər Azərbaycanda bir çox yüngül sənaye müəssisə və istehsal birlikləri fəaliyyət göstərirdi.[9] Bu istehsal birliklərinin regionlarda istehsal vahidləri yerli əhalinin tələblərinə uyğun məhsullar istehsal edirdi. O zaman yüngül sənaye məhsullarına olan tələbat əsasən ödənilirdi. Təkcə Bakı şəhərində 15-dən çox yüngül sənaye nazirliyinin tabeliyində olan müxtəlif təyinatlı yüngül sənaye müəssisələri və istehsal birlikləri fəaliyyət göstərirdi.

Respublikanın yüngül sənaye nazirliyinin təsərrüfatlarında 60 mindən çox yüksək ixtisaslı kadrlar çalışırdı. Həmin təsərrüfatlar müasir texniki vasitələrlə təmin edilmiş və yeni texnoloji konveyer xətləri ilə təmin edilmişdi. Bu sahənin bir sıra müəssisələri, həmin sahələrin digər təsərrüfatlarını xammal və əsas materiallarla təmin edirdi.

Yüngül sənayedəki xidmət sahələrində özəlləşdirmənin əsas nəticələri olaraq əmək məhsuldarlığı yüksəldilməli, nəqliyyatda əsaslı vəsait qoyuluşundan səmərəli istifadə olunmalı, daşımalarda nəqliyyat xərcləri azaldılmalı, fiziki və hüquqi şəxslərin daşımalara olan tələbatları tam ödənilməlidir. Odur ki, respublikada yüngül sənaye məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədi ilə yeni layihələr işlənib hazırlanmalı və həyata keçirilməlidir.[10]

Firmanın bazar strategiyasının formalaşdırılmasının qeyd olunmuş yanaşmaları və metodları elmi texniki potensialı, rəqabət qabiliyyətlilik səviyyəsi, məqsədləri, ənənələri müxtəlif olan ölkələrdə müxtəlif ola bilər.[11] Odur ki, konkret strategiyanın mövcud imkanlardan, firmanın məqsədindən və konkret vəziyyətindən asılı olaraq müəyyən edilməsini məqsədəuyğun hesab edirik.

Dissertasiya işinin **“Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin əsas istiqamətləri” adlı üçüncü fəslində** yüngül sənaye müəssisələrində resursların səmərəli istifadəsinin mühüm istiqamətləri əsaslandırılmışdır.

Yüngül sənayenin inkişafının başlıca amillərindən biri bu sahədə elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqidir. Elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi bu sahədəki təbii, material - texniki, enerji, əmək və

---

[9]“Sahibkarlık fəaliyyfəti haqqında” Azəbaycan Respublikasının Qanunu. Azəbaycan Respublikasının Qanunlar Külliyatı. Bakı: “Digesta” nəşriyyatı, I cild, 2001, s. 280.

[10]Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X. İqtisadi nəzəriyyə (dərslik). Bakı: “Çaşıoğlu”, 2001, s. 398.

[11]Locality and inequality farm and industry structure and socioeconomic conditions. United States, Farmers, Economic conditions, 1981-2001. p. 178

maliyyə resurslarının səmərəli istifadəsi üçün geniş imkan yaradır. Qloballaşma şəraitində beynəlxalq standartlara uyğun yeni texnikanın və yeni texnologiyanın tətbiqi əsasında yüngül sənaye sahələrinin hərtərəfli fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi xüsusi aktuallıq kəsb edir.[12] Tətbiq olunacaq yeni texnika və texnologiyanın növünün və tipinin düzgün seçilməsi, həmin sahələrin resurslarının daha da səmərəli istifadə olunması üçün xüsusi əhəmiyyət kəsb etdiyindən, onların tətbiqinin iqtisadi səmərəliliyinin qabaqcadan əsaslandırılması tələb olunur. Bununla yanaşı biznes-planda yüngül sənaye istehsalının səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar kompleks tədbirlər planlaşdırılmalıdır. Biznes-planın müvafiq bölmələrində texniki, təşkilat və sosial-iqtisadi tədbirlər planlaşdırılır.[13] Texniki tədbirlər: yeni texnikanın və texnoloji proseslərin, habelə yeni texnoloji metodların, kompleks mexanikləşdirmə və avtomatlaşdırmanın tətbiqi planlaşdırılır.

**Təşkilati tədbirlərə:** idarə aparatının təşkili sxeminin əsaslandırılması, kadrların düzgün yerləşdirilməsi və istifadə edilməsi, kadr hazırlığının təşkili, əməyin elmi təşkili (ayrı-ayrı peşə və ixtisaslar üzrə) tədbirlərin planlaşdırılması aiddir.

**İqtisadi tədbirlərə:** əmək haqqı forma və sistemlərinin düzgün seçilməsi, iqtisadi həvəsləndirmə sisteminin, habelə, mükafatlandırma sisteminin geniş tətbiqinin əsaslandırılması aiddir.

**Sosial tədbirlərə:** işçilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi tam sağlamlaşdırılması, elmi-texniki tərəqqinin təsiri ilə yeni ixtisasların yaranması, fiziki əməklə mühəndis-iqtisadçı əməyinin xarakteri arasındakı yaxınlığın və kollektivin sosial quruluşunun təkmilləşdirilməsi, asudə vaxtın səmərəli istifadə olunmasının planlaşdırılması aiddir. Bu tədbirləri planlaşdırarkən onların iqtisadi səmərəliliyi müəyyən edilməlidir.

Bazar iqtisadiyyatı şəraitində xalqın maddi və mənəvi tələbatlarının hərtərəfli və tam ödənilməsi, hər şeydən əvvəl, istehsal sahələrinin mənfəətlilik nöqteyi-nəzərdən inkişafından asılıdır. Hər bir təsərrüfatda resursların səmərəli istifadə olunması həmin təsərrüfatın biznes fəaliyyətinin başlıca amili hesab edilməlidir. Odur ki, hər bir təsərrüfatda

---

[12] Экономика предприятия. Под редакций Ф.К. Беа, Э.Дихтла, М.Швайт цера: Пер. с нем. М.: ИНФРА-М, 1999, 528 стр.

[13] Ханларов Ф. Организация внутрифирменной экономической работы. Дисс. канд. экон. наук. Баку, 2000, стр. 53.

resursların səmərəli istifadə olunması nöqteyi-nəzərdən biznes-planın işlənib hazırlanması xüsusi əhəmiyyətə malikdir.[14] Yüngül sənaye sahələrində mənfəətlilik nöqteyi-nəzərdən biznes-plan aşağıdakı bölmələr üzrə tərtib edilməlidir:

- ✓ Yüngül sənaye məhsullarına olan təlabatın müəyyən edilməsi üçün marketinq tədqiqatlarının planlaşdırılması. Marketinq tədqiqatları əsasında yüngül sənaye məhsulları üzrə tələb və təklif müəyyənləşdirilməlidir;
- ✓ Yüngül sənaye sahələrində elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin, ixtira və səmərələşdirici təliflərin tətbiqinin planlaşdırılmalıdır;
- ✓ Yüngül sənaye birliklərində köməkçi və yardımçı təsərrüfatların planlaşdırılması. Yüngül sənaye birliklərinin yerləşdiyi ərazidə ona ayrılmış torpaq sahəsində yardımçı təsərrüfatların istehsal gücü müəyyənləşdirilməlidir;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində əsaslı tikintinin, rekonstruksiyanın və genişləndirmənin planlaşdırılması;
- ✓ Yüngül sənaye sahələrində əmək və əmək haqqının planlaşdırılması, inkişaf etmiş ölkələri səviyyəsinə uyğunlaşdırılmalıdır;
- ✓ Yüngül sənaye müəssisələrində təbii resursların səmərəli istifadəsinin konkret yolları göstərilməli və ona uyğun planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində dövriyyə vəsaitlərinin səmərəli istifadəsi planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində əməyin elmi təşkili kompleks tədbirləri planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində uzunmüddətli kreditin səmərəli istifadəsi planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində qısamüddətli kreditin səmərəli istifadəsi planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrində kollektivin sosial inkişafı planlaşdırılmalıdır;
- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye müəssisələrinin dövlət və kommersiya bankları ilə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi planlaşdırılmalıdır;

---

[14] Спитцына К.А. Главные руководители японских компаний: практика работы. М.: Финансы и статистика, 1999, стр. 160.

- ✓ mənfəətlilik meyarı ilə yüngül sənaye məhsullarının reallaşdırılmasından əldə ediləcək mənfəətin ümumi məbləğinin artırılması ilə əlaqədar kompleks tədbirlər planı işlənib hazırlanmalı və əməli təqvim qrafik üzrə həyata keçirilməlidir.

Dissertasiya işinin sonunda, Azərbaycanın yüngül sənaye sahələrində resurslardan istifadənin nəticələri ümumiləşdirilərək, daha səmərəli istifadə olunması ilə əlaqədar təklif və tövsiyələr irəli sürülmüşdür:

- ➢ Respublikamızda yüngül sənaye məhsullarının istehsalı bir çox sahələr üzrə (xüsusi ilə uşaq geyimləri) getdikcə azalır;
- ➢ Yüngül sənaye sahələri üzrə maşın və avadanlıqların yeniləşdirilməsi olduqca aşağı səviyyədədir;
- ➢ Hal - hazırda yüngül sənaye sahələri və müəssisələrində istismarda olan maşın və avadanlıqların əksər hissəsi fiziki və mənəvi cəhətdən köhnədirlər;
- ➢ İstehsal prosesində istifadə olunan resurslardan istifadə səviyyəsi qənaətbəxş deyil;
- ➢ Yüngül sənaye sahələri üzrə modernləşmə ( Sumqayıt Üst trikotaj, xovlu iplik, Bakı mahud kombinatı və s.) və yeni texnologiyaların tətbiqi prosesi aparılsa da, kadr hazırlığı aşağı səviyyədədir;
- ➢ Tikiş sənayesində, toxuculuq və trikotaj sənayesinə nisbətən modernləşmə daha sürətlə aparılır, lakin burada da resurslardan daha səmərəli istifadə metodlarından geniş istifadə olunmur;
- ➢ Dəri, dəri məmulatları və ayaqqabı istehsalında son illərdə yeni texnika və texnologiyalardan istifadə olunmasına baxmayaraq, istehsal prosesində hələ də köhnə avadanlıqlardan-texnologiyalardan istifadə olunur ki, bu da resurslardan daha səmərəli istifadə olunmasına, daha keyfiyyətli və rəqabətə davamlı məhsullar istehsalına maneələr yaradır;
- ➢ Müstəqillik qazandığımız dövrdən bəri yüngül sənaye sahələrində ən çox önəm verilən sahə məhz pambıq iplikərin istehsalı-pambıq əyirici sahəsidir ki, burada istehsal olunan pambıq ipliklər (N30/2, 34/2, 40/2 ) əsasən yaxın xarici ölkələrə (Rusiya, Türkiyə, İran və s.) satılır;
- ➢ Azərbaycan Respublikasının yüngül sənaye sahələrində resursların səmərəli istifadəsi ilə əlaqədar sahibkarlığın inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdir;
- ➢ Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsi ilə əlaqədar müəssisələrin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi yolları müəyyən edilmişdir;

- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadə edilməsində elmi-texniki tərəqqinin rolu müəyyən edilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resurslardan səmərəli istifadə göstəriciləri işlənib hazırlanmışdır;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsi qiymətləndirilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin təşkili, planlaşdırılması və idarə edilməsində iqtisadi-riyazi modellərin və metodların geniş tətbiqi yolları göstərilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye müəssisələrinin, iri şəhər və sənaye mərkəzlərində, habelə, regionlarda yerləşdirilməsinin optimal istiqamətləri müəyyən edilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye sahələri üçün orta və yüksək ixtisaslı mütəxəssis kadrlarının hazırlanmasının zəruriliyi qeyd edilmiş və yolları göstərilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye müəssisələrində əsas və dövriyyə istehsal fondlarından səmərəli istifadə olunmasının əsas istiqamətləri göstərilmişdir;
- Azərbaycan Respublikasının yüngül sənaye müəssisələrində uçot və təhlilin beynəlxalq standartlara uyğunlaşdırılmasının vacibliyi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının yüngül sənaye müəssisələrində resurslardan səmərəli istifadənin əsas istiqamətləri araşdırılaraq, tövsiyələr verilmişdir.

- Ölkəmizdə istehsal olunan pambıq iplikər daxili istehsala yönəldilsin, ən çox hazır məhsul ixracına önəm verilsin;
- Yüngül sənaye sahələri üçün müxtəlif nömrəli yun və yarım yun ipliklərin istehsalı bərpa edilsin;
- Yüngül sənaye sahələrinin inkişafını qabaqcıl ölkələrin istehsal səviyyəsinə qaldırmaq və istehsalı stimullaşdırmaq məqsədi ilə buraya dövlət qayğısının artırılması nəzərdə tutulsun:

Bu məqsədlə; ilk növbədə bu sahələrə uzun müddətli dövlət kreditləri-investisiyalarının qoyulması:

a) Həmin kreditlər hesabına ən yeni texnika – texnologiyaların gətirilməsi,
b) Gətiriləcək maşın və avadanlıqlara (texnika-texnologiyaların) gömrük güzəştlərinin tətbiq edilməsi;

c) Müəyyən müddətə (3-5 il) bu sahədə vergilərin aşağı endirilməsi;
d) Bu sahə üzrə xaricdə ali və orta ixtisaslı kadrların hazırlanmasına nail olmaq lazımdır;

Tədqiqat işində yekun olaraq belə qənaətə gəlmişik ki, respublikamızda yüngül sənaye sahələrində resurslarından səmərəli istifadə olunması, əhalinin bu sahənin məhsullarına olan tələbatının ödənilməsinə, hətta xarici ölkələrə hazır məhsul ixracına imkan verə bilər. Yüngül sənaye sahələrinin inkişaf etdirilməsi bu sahəyə investisiyaların cəlb edilməsini, müəyyən güzəştlərin (yuxarıda qeyd olunmuş) tətbiqini tələb edir kı, bu da dövlətin himayəsi ilə həyata keçirilə bilər. Yüngül sənaye sahələrinə cəlb edilən investisiya həcminin artırılması, innovativ texnika və texnologiyanın tətbiqi üstün xammal ixracını azaldar və bu sahənin inkişafının artım dinamikasına güclü təkan verərlər. Ölkəmizin dünya birliyində rəqabətliliyinin və onun dünya iqtisadi məkanında bərabər hüquqlu inteqrasiyasını təmin edər.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin əsas məzmunu üzrə aşağıdakı elmi məqalələr dərc edilmişdir:**

1. Cəfərov T.V., İbrahimov Ş.M., Yüngül sənaye müəssisələrində yeni texnika və texnologiyaların tətbiqi istiqamətləri // Azərbaycan Texniki Universitetinin Elmi əsərləri, 2007, № 3, s. 77-78.
2. Cəfərov T.V., Yüngül sənaye sahəsində resursların səmərəli istifadəsinin nəzəri-metodoloji əsasları // AMEA İqtisadiyyat İnstitutu. İqtisadi Xəbərlər jurnalı, 2008 № 2, s. 150-153.
3. Cəfərov T.V., Yüngül sənaye sahələrində resursların səmərəli istifadə problemləri / Azərbaycan Texniki Universiteti Professor – müəllim heyətinin və aspirantların 54-cü elmi texniki və tədris – metodiki konfransı Bakı, 2009 № 2, s. 294-295.
4. Джафаров Т.В., Принципы и методы эффективного использования ресурсов в хозяйствах легкой промышленности // «Экономика социология и право». Москва: Октябрь, 2009 № 10, стр. 9-13.
5. Cəfərov T.V., Yüngül sənaye müəssisələrində resrusların səmərəli istifadəsinin planlaşdırılması // AMEA İqtisadiyyat İnstitutu. İqtisadi Xəbərlər, 2010, № 1, s. 96-100.

6. Cəfərov T.V., Yüngül sənaye sahələrində resursların səmərəli istifadə edilməsində elmi-texniki tərəqqi və onun tətbiqinin iqtisadi səmərəliliyi // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2010, № 2, s. 299-303.
7. Cəfərov T.V., İbrahimov Ş.M., Yüngül sənaye sahələrinin inkişaf etdirilməsinin əsas istiqamətləri // AMEA İqtisadiyyat İnstitutu. İqtisadi Xəbərlər jurnalı, 2010, № 3, s. 128-132.
8. Cəfərov T.V., İbrahimov Ş.M., Məhsulun keyfiyyətinin yüksəldilməsi resurslardan səmərəli istifadə edilməsinin mühüm amili kimi // AMEA İqtisadiyyat İnstitutu. İqtisadi Xəbərlər jurnalı, 2010, № 4, s. 30-33.
9. Джафаров Т.В., Вопросы планирования эффективного использования ресурсов в хозяйствах легкой промышленности // Перспективы науки. Тамбов, 2011 № 12, стр. 202-205.
10. Джафаров Т.В., Вопросы эффективного использования ресурсов в хозяйствах легкой промышленности // «Межкультурные коммуникации». Тбилиси, 2011, № 15. стр. 199-202.
11. Cəfərov T.V., Sənaye sahələrində resurslardan səmərəli istifadəni müəyyənedən amillərin tədqiqi // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2013, № 2, Səh. 279-284.

**Туран Велияддин оглы Джафаров**

# Проблемы эффективного использования ресурсов в отрасли легкой промышленности

## РЕЗЮМЕ

В результате осуществляемых в Азербайджанской Республике успешных реформ экономика страны вступила на качественно новый этап своего развития. С этой точке зрения эффективное использование ресурсов во всех отраслях и в частности в легкой промышленности страны приобретает особую актуалность.

В первой главе диссертационной работы рассмотрены теоритио-методологические основы эффективного использования ресурсов в легкой промышленности Азербайджанской Республики. Особое внимание уделено рассмотрению основных принципов эффективного использования. В этой же главе преведены основные покозатели оценки эффективного использования ресурсов в легкой промышленности Азербайджанской Республики.

В второй главе диссертационной работы рассмотрены и даны анализ показателей, характеризуюших современное состояние эффективного использования ресурсов в ортасли легкой промышленности Азербайджанской Республики. В этой главе рассмотрены так же вопросы внедрения основных результатов экономической реформы осуществляемых в легкой промышленности Азербайджанской Республики.

В третьей главе диссертационной работы рассмотрены основные направления эффективного использования ресурсов в легкой промышленности Азербайджанской Республики. В этой главе рассмотрены так же роль внедрения достижений результатов научно-технического прогресса в эффективном использовании ресурсов в легкой промышленности. В этой главе рассмотрены так же вопросы планирования эффективного использования ресурсов в легкой промышленности Азербайджанской Республики.

В конце этой главы приведены основные направления эффективного использования ресурсов в легкой промышленности Азербайджанской Республики, а так же основные выводы и рекомендации по повышению эффективности использования ресурсов в хозяйствах легкой промышленности

**Turan Veliyeddin oglu Jafarov**

## Problems of effective utilization of resources in the light industry

## SAMMARY

In the result of carried out successful reforms in Azerbaijan Republic, economy of the country has entered to a qualitatively new stage in its development. In this point of view of effective utilization in all the fields, particularly in the light industry of the country has special urgency.

In the first stage of dissertation work looked through to the theoretical and methodological bases of effective utilizations of light industry in Azerbaijan Republic. Special attention has given to the basic principles of effective utilization. In the same stage has given attention to the base indicators of effective utilization of light industry in Azerbaijan Republic too.

In the second stage of dissertation work looked through and also has given the indicator analysis, characterizing modern situation of effective utilization of resources in the light industry of Azerbaijan Republic. In the same stage has given attention to the basic results of introduction problems of economic reforms that carried out in the light industry of Azerbaijan Republic.

In the second stage of dissertation work looked through to the main directions of effective utilization of resources in the light industry of Azerbaijan Republic. At the same stage also looked through to the introduction role in achievement of scientific and technical progress in effective utilization of resources in the light industry. There has looked through to the planning problems the introduction role in achievement of scientific and technical progress of effective utilization of resources in the light industry of Azerbaijan Republic.

At the end of this stage has given main directions of effective utilization of resources in the light industry of Azerbaijan Republic, also main results and recommendations for increasing effective utilization of resources of the light industrial farms.

Çapa imzalanmışdır: 24.04.2015
Formatı: 60/84, 16/1
Sifariş: 76
Sayı: 100

*AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir*

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ

***На правах рукописи***

**ТУРАН ВЕЛИЯДДИН ОГЛЫ ДЖАФАРОВ**

# ПРОБЛЕМЫ ЕФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ РЕСУРСОВ В ОТРАСЛЯХ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ

**Специальность: 5312.01- Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени
доктора философии по экономике**

**НАХЧЫВАН-2015**